**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# DÜNYA ƏDƏBİYYATININ NƏZƏRİ PROBLEMLƏRİ AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞINDA

| | |
|---|---|
| İxtisas: | 5715.01 – Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid |
| Elm sahəsi: | Filologiya elmləri |
| İddiaçı: | **Nübar Natiq qızı İbrahimova** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Yeganə Nəhmətulla qızı İsmayılova** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, dosent<br>**Cavanşir Əziz oğlu Əliyev** |
| | filologiya elmləri doktoru, dosent<br>**Ramiz Asəf oğlu Qasımov** |
| | filologiya elmləri üzrə fəlsəfə doktoru<br>**Sevinc Ayaz-Vəfalı qızı Heydərova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən FD 1.31 qeydiyyat nömrəli Dissertasiya Şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ________________ | AMEA-nın həqiqi üzvü,<br>filologiya elmləri doktoru, professor<br>**Rafael Baba oğlu Hüseynov** |
| Dissertasiya şurasının elmi katibi: ________________ | filologiya elmləri üzrə fəlsəfə doktoru<br>**İlhamə Mürsəl qızı Gültekin** |
| Elmi seminarın sədri: ________________ | filologiya elmləri doktoru, dosent<br>**Məleykə Eyyub qızı Hüseynova** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı və işlənmə dərəcəsi.** Çağdaş mərhələdə dünya ədəbiyyatının nəzəri problemlərinin Azərbaycan ədəbiyyatşünaslığında öyrənilməsi son dərəcə aktualdır. Bu ilk növbədə onunla bağlıdır ki, tədqiqat obyekti kimi götürdüyümüz problem və mövzu belə formatda ədəbiyyatşünaslığımızın inkişaf mərhələlərində nə tədqiqat işi, nə də monoqrafik araşdırma predmeti kimi çıxış etməmişdir. Odur ki, metodoloji plüralizmdən istifadə edib ədəbiyyatın dərki ilə bağlı və s. kimi müxtəlif yanaşmalara söykənərək sosioloji, kulturoloji, komparativist, mənimsəmə, ədəbi əlaqələr, mətnlərarası və s. məsələlərə dərindən nəzər salıb, Azərbaycan ədəbiyyatşünaslığına, onun mahiyyətinə birbaşa aid olan və digər xalqların ədəbiyyatlarından gələn metodlar, cərəyanlar, istiqamətlər, janrlar və s. təhlil olunmalı, tədqiqatlara cəlb edilməlidir. Eyni zamanda Şərq, Qərbi Avropa, rus, dünya və Amerika ədəbiyyatlarına, ədəbi prosesə, ədəbi həyata, ədəbi resepsiyaya (mənimsəməyə) olan baxış və nəzəri yanaşmaların yenidən diqqət mərkəzinə çəkilməsinə də ehtiyac duyulmaqdadır. Bütün bu proseslərin müasir Azərbaycan ədəbiyyatşünaslığında hərəkəti o zaman uğurlu ola bilər ki, burada ədəbiyyatın mahiyyəti ilə bağlı nəzəri baxışlar, onun müxtəlif tərəf və aspektləri, həqiqi faktorları, şərait və formalarının inkişafı adekvat mövqedən düzgün dərk olunsun. Yalnız ədəbi yaradıcılığın hansı real əlamətlərə məxsus olmasını bildikdə onunla bağlı daha doğru mühakimələr yürütmək və mülahizələr ortaya qoymaq mümkündür. Bu baş verdikdə Azərbaycan ədəbiyyatşünaslığının təkamülünü həm də onun dünya ədəbiyyatının nəzəri problemlərinin daxilində necə təhlil olunduğunu izləməyə imkan verməklə, münbit nəzəri-metodoloji çevrə yarada bilər.

Azərbaycan ədəbiyyatının və ədəbiyyatşünaslığının mühüm problemlərinin, onun uzun əsrlər boyunca keçdiyi yolun rus, Şərq, Qərbi Avropa və dünya ədəbi-nəzəri fikrindən istifadə edib, necə inkişaf etdiyini öyrənmək olduqca zəruridir.Ədəbiyyatşünaslığımızda xeyli sayda kateqoriyalar vardır ki, onlar rus, Qərbi Avropa və dünyada mövcud olanlarla üst-üstə düşməmiş, özünü fərqli şəkildə təzahür etdirmişdir. Odur ki, dünya ədəbiyyatının nəzəri problemlərinin Azərbaycan ədəbiyyatşünaslığında özünü necə əks etdirməsini, onlardakı nəzəri xüsusiyyətlərin qnoseologiyasını müəyyənləşdirmək həm mental-dini

baxımdan yaxın olan, həm də ədəbi-nəzəri ənənələri və kateqoriyaları bir-birindən fərqli olub, digər əlamətləri ilə üst-üstə düşməyən oxşar və fərqli tendensiyaların müəyyənləşdirilməsi aktuallaşır.

Dünya ədəbiyyatının nəzəri problemləri orta əsrlərdən tutmuş Azərbaycan bədii-fəlsəfi-estetik sistemində öyrənilməyə başlanılıb, bir sıra qənaətlərə gəlinsə də, M.F.Axundzadə dövründən başlayaraq bu sahədə xüsusi canlanma müşahidə olunmuşdur. Çünki M.F.Axundzadə XIX əsrdə rus və Avropa ictimai-siyasi və ədəbi-mədəni fikrinin, elmi-fəlsəfi, estetik-psixoloji təfəkkürünün gücü ilə Qərb təfəkkürü və Qərb meyarlarına söykənməklə Azərbaycan ədəbi-nəzəri düşüncəsinin Qərb istiqamətinə yönəldilməsində, M.Quliyevin təbirincə desək, "Azərbaycan həyatının Avropalaşdırıcısı"[1] missiyasını öz üzərinə götürmüşdür. Dünya ədəbiyyatından müxtəlif dövrlərdə Azərbaycan ədəbiyyatına və ədəbiyyatşünaslığına daxil olan Qərb yazıçılarının əsərlərindən (V.Şekspir, Y.Molyer, C.Bayron, B.Şelli, C.Svift, R.Stivinson, S.Moyem, K.Doyl, A.Kristi, C.Oldric, Ç.Dikkens, T.Drayzer, İ.Höte, E.Zolya və b.) və rus ədəbiyyatından (A.Puşkin, M.Qoqol, M.Lermontov, A.Dobrolyubov, F.Dostoyevski, A.Çexov, M.Qorki, M.Şoloxov, V.Mayakovski, A.Tvardovski və b.) gələn nümunələrin müqayisəli-qarşılaşdırıcı kontekstdə öyrənilməsi, onların nəzəri müddəaları, əsərlərinin tərcümələri, mənimsənilməsi, ədəbiyyatşünaslığımızın həmin ədəbiyyatlardan zənginləşməsi ilə yanaşı, həm də nəzəri fikrimizin bir sıra problemlərinin həllinə istiqamətlənirdi.

Dünya ədəbi-nəzəri fikrinin ədəbiyyatşünaslığımızda mənimsənilməsi digər aspektlərlə yanaşı, axın, cərəyan, poetika, metod, janrlar və s. istiqamətlərində gedirdi. Azərbaycan ədəbiyyatşünasları İ.Hikmət, M.Quliyev, M.Cəlal, Ə.Səfərli, X.Yusifli, R.Azadə, C.Xəndan, F.Qasımzadə, Ə.Hüseynzadə, H.Araslı, K.Talıbzadə, M.Rəfili, Ə.Mirəhmədov,Y.Qarayev, V.Osmanlı və b. bu yöndə apardığı axtarışlar, heç şübhəsiz ki, problemin bəzi tərəflərinin incələnməsinə xidmət etmişdir. Adlarını qeyd etdiklərimiz bu istiqamətdə bir sıra işlər həyata keçirmiş olsalar da, təqdim edilmiş mövzu formatında problem nəinki nəzərdən keçirdiyimiz rakursdan, həm də digər çoxsaylı baxış bucaqlarından tədqiqatlara cəlb edilməyə ehtiyac duyur. Elmi yanaşma

[1] Quliyev, M. Mirzə Fətəli Axundovun yaradıcılığı // - Bakı: Axundov, M.F. Məqalələr məcmuəsi. Azərb. SSR Elmlər Akademiyası Nəşriyyatı, - 1962. - s. 120-127

digər sahələrdə olduğu kimi ədəbiyyatda və ədəbiyyatşünaslıqda həm küll halında, həm də diferensiasiya olunmuş halda incələnməyə ehtiyaclıdır. Dünya ədəbiyyatının nəzəri problemlərinin bəzilərinin Azərbaycan ədəbiyyatşünaslığında Şərq poetikası, erkən realizm, maarifçi realizm, realizm, magik realizm, postrealizm, romantizm, sosrealizm, axın, cərəyan, metod, janr və s. istiqamətində bəzi məsələləri öyrənilmişdirsə, problemin həm də başqa çoxsaylı prizmalardan tədqiq olunmasına ehtiyac duyulmaqdadır.

**Tədqiqatın obyekti və predmeti** orta əsrlərdən üzü bəri Şərq, rus, Qərbi Avropa və dünya ədəbiyyatının çeşidli problemlərinin Azərbaycan ədəbiyyatşünaslığında necə əks olunduğunu nəzərdən keçirməkdir. XI əsrdən Q.Təbrizi və X.Təbrizi, Ə.Təbrizi, M.Qəzvini, R.Təbrizi, Füzulidən tutmuş Şərq ədəbiyyatının, o cümlədən Avropa və rus romantizminin və realizminin, lirik janrların Azərbycan ədəbiyyatşünaslığında özünü necə göstərməsi, möhkəmlənməsi, dünyada və Avropadakı mövcud ədəbi cərəyanların və janrların Azərbaycan ədəbiyyatşünaslığına daxil olması və s. işin obyektini təşkil edir. Dünya ədəbiyyatının nəzəri problemlərinə müraciət edən müəlliflərin Şərq, Qərbi Avropa, rus və dünya ədəbi-bədii nümunələrinə əsaslanaraq onların ədəbiyyatşünaslığımıza gətirilməsinə nail olan bədii təfəkkür sahibləri və alimlərin (M.F.Axundzadə, Ə.Hüseynzadə, F.Köçərli, S.Hüseyn, M.Cəlal, M.Cəfərov, K.Talıbzadə, T.Əfəndiyev, A.İbadoğlu, M.Əlioğlu, A.Hacıyev, R.Azadə, K.Əliyev, Ş.Vəliyev, Ə.Kabaklı, M.Ünlü, S.Tağızadə, Y.Babayev, H.Qasımov, T.Salamoğlu, N.Şəmsizadə və başqalarının) bu istiqamətdə olan əsərlərinin incələnməsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın məqsədi uzun zaman kəsiyində Şərq, Qərbi Avropa, rus və dünya ədəbiyyatının nəzəri problemlərinin Azərbaycan ədəbiyyatşünaslığına necə daxil olduğunu təhlil mərkəzinə qoyduğumuz axın, cərəyan, istiqamətlər, metodlar və janrların alimlərimiz tərəfindən necə öyrənilməsini nəzərdə tutur. Eyni zamanda məqsəd həm də ədəbi prosesə daxil olmuş həmin nümunələrin ədəbiyyatşünaslığımızın inkişaf perspektivlərinə, onun prioritet istiqamətlərinə təsirini incələməkdən ibarətdir. Bu məqsəddən çıxış edərək həm də aşağıdakı vəzifələrin həyata keçirilməsi qarşıya qoyulmuşdur:

- Dünya ədəbi-nəzəri fikrinin Azərbaycan ədəbiyyatı və

ədəbiyyatşünaslığına təsirinin araşdırılması və onun hansı axın, cərəyan, metod, janr və s. təzahürünün üzə çıxarılması;

- Romantizmin Qərbi Avropa və rus ədəbiyyatlarından Azərbaycan şairlərinin yaradıcılığına daxil olması, ədəbiyyatşünaslarımızın ona nəzəri yanaşması, romantizmin Avropa və rus ədəbi-fəlsəfi fikrində təşəkkülünə rəvac verən nəzəriyyəçilərin, Azərbaycan romantikləri və romantizm nəzəriyyəçilərinin Qərb və rus ədəbiyyatından bəhrələnmələrinin başlıca səbəblərinin araşdırılması;

- Romantizmə müxtəlif yönlərdən yanaşmaların başlıca səbəbinin araşdırılıb təhlil edilməsi;

- Romantik metodla realist metodun konkret təhlillər nəticəsində fərqlərinin ortaya qoyulması;

- Azərbaycanda realist sənətin təşəkkülünə və inkişafına M.F.Axunzadənin fəlsəfi-estetik baxışlarının nəzəri əsərlərindən irəli gələn xüsusiyyətlərinin incələnməsi. Rus və Avropa tədqiqatçılarının və tənqidinin M.F.Axundzadə realizminə verdiyi dəyərin öyrənilməsi və ortaya çıxarılması;

- Romantizm və realizm cərəyanlarının təhlili zamanı problemin ənənə və novatorluq, Azərbaycan ədəbiyyatşünaslığında romantizm, realizm, sosialist realizmi, o cümlədən Avropa və rus mənşəli lirik janrların gəlişinin nəzəri fikrimizdə bədii ənənələr əsasında izlənilməsi;

- Qərbi Avropa, rus və dünya romantizmi, realizmi və sosialist realizmindən gələn xüsusiyyətlərin Azərbaycan ədəbi-nəzəri sistemində tətbiqinə dair mülahizələrin öyrənilməsi, onlar arasındakı ortaq nöqtələrin ortaya qoyulması;

- Dünya ədəbiyyatının nəzəri problemlərinin milli ədəbi-estetik təfəkkürümüzdə qoyduğu izlərin Azərbaycan ədəbiyyatşünaslığının keçdiyi yol baxımından təhlili və s. ibarətdir.

**Tədqiqatın metodları.** Dissertasiya tarixi-müqayisəli tədqiqat metoduna söykənilərək hazırlanmışdır. Müəllif işi hazırlayarkən daha fundamental klassik və müasir metodoloji nəzəri əsərlərin və ədəbi tənqidin tutarlı örnəklərindən yararlanmağa səy göstərmişdir. Müqayisəli aspektdə yerinə yetirilən bu tədqiqatda Avropa (Şleqel, Şellinq, Y. və V.Qrimm qardaşları və b.), rus (N.Konrad, İ.Neupokoyeva, S.Petrov, V.Sokolov, O.Kovalyov və b.), Azərbaycan (M.F.Axundzadə, F.Köçərli, Ə.Hüseynzadə, M.Cəfər, K.Talıbzadə, V.Osmanlı, A.Hacıyev,

O.Bayramlı, S.Tağızadə, M.Quliyev, Mir Cəlal, B.Nəbiyev, S.Əsədullayev, H.Həşimli, N.Şəmsizadə, T.Salamoğlu, Q.Quliyev və b.) və başqa alimlərin nəzərdən keçirdiyimiz məsələ ilə bağlı mülahizələrinə söykənilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Bu günə qədər Azərbaycan ədəbiyyatşünaslığı və ədəbi-nəzəri və fəlsəfi-estetik fikrində dünya ədəbi-nəzəri fikrinin heç bir tədqiqat işində bütöv şəkildə təhlil obyekti kimi çıxış etmədiyini əsaslandırmaq;

2. Ayrı-ayrı Azərbaycan müəlliflərinin bu və ya digər kontekstdə dünya ədəbi-nəzəri fikrinə yanaşmalarının lokal xarakterli olduğunu sübut etmək;

3. Azərbaycan ədəbiyyatşünaslığının dünya ədəbiyyatı və ədəbi-nəzəri fikrində yararlanmasında M.F.Axundzadə, Ə.Hüseynzadə, C.Məmmədquluzadə, M.Ə.Sabir və digər ədiblərmizin yaradıcılığından yararlanmasının zəruriliyinin vurğulamaq;

4. Azərbaycan müəlliflərinin milli ədəbiyyat ilə bağlı tədqiqatlarında M.F.Axundzadə, M.Rəfili, Ə.Hüseynzadə, F.Köçərli, M.Cəlal, M.Cəfərov, K.Talıbzadə, T.Əfəndiyev, M.Əlioğlu, F.Hacıyev, R.Azadə, K.Əliyev, Y.Qarayev, S.Tağızadə, M.Quliyev, H.Qasımov, Y.Babayev N.Şəmsizadə və başqalarının əsərlərində dünya ədəbiyyatının nəzəri problemlərindən istifadə etməklə ədəbiyyatşünaslığımızın inkişafına verdiyi töhfələri dəyərləndirmək;

5. Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslığında Şərq, rus, Qərbi Avropa və dünya ədəbi-nəzəri fikrindən mədəni-ədəbi kontekstə daxil olan nümunələrin üzə çıxırılması və qarşılıqlı ikitərəfli inteqarsiyanın davamlı proses kimi izlənilməsini tədqiqatlardan kənarda qalmış məqamlar kimi vurğulamaq və s. ibarətdir.

**Tədqiqatın elmi yeniliyi** ondadır ki, burada dünya ədəbiyyatının nəzəri problemlərini ilk dəfədir ki, göstərilən formatda Azərbaycan ədəbiyyatşünaslığında araşdırılmasına cəhd edilmişdir. Dissertasiyada ilk dəfə olaraq dünya, Şərq, Qərb, rus ədəbiyyatının ədəbi cərəyan, axın, istiqamət, metod, lirik janrların ədəbiyyatşünaslığımızda tətbiqi sistemli, ardıcıl və müvafiq konsepsiya əsasında incələnmişdir. Ədəbiyyatşünaslığımızda romantizm, realizm və sosialist realizmi kimi cərəyanların, sonet janrının öyrənilməsinə belə prizmadan yanaşılma və Azərbaycan ədəbiyyatşünaslığı nümayəndələrinin nəzəri baxışlarının

öyrənilməsi bədii fikrimizin dünya ədəbi prosesinə qoşulmasının və dünya ədəbiyyatı ilə tipoloji yaxınlığının nəzərdən keçirilən müstəvidə öyrənilməsi işin elmi yeniliyinin başlıca xüsusiyyətlərindəndir. Eyni zamanda tədqiqatda ilk dəfədir ki, son 100 ildən artıq bir dövrdə Azərbaycanda işıq üzü görmüş dünya ədəbiyyatının nəzəri problemlərini bu və ya digər rakursdan nəzəri fikrimizə gətirən ədəbiyyat nəzəriyyəsi, ədəbiyyatşünaslıq, ədəbiyyatşünaslığın əsasları dərs vəsaiti, dərslik və kitablar da sistemli və ardıcıl olaraq təhlillərə cəlb edilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyada dünya ədəbiyyatının nəzəri problemlərinin Azərbaycan ədəbiyyatşünaslığında ədəbi cərəyan, istiqamət, metod və s. Azərbaycan ədəbiyyatşünaslığında öyrənilməsi lirik janrlar, ədəbi-nəzəri fikrimizdə özünə yer almış uzun tarixi kəsimlər dövrünü əhatə etdiyindən bəzən ziddiyyətli, tipoloji, mənimsəmə və s. kimi yaradıcı meyillərin araşdırılması ədəbiyyatşünaslıq tarixçiliyimizi öyrənmək baxımından əhəmiyyətlidir. Tədqiqatda orta əsrlərdən gələn ədəbiyyatşünaslığımızın müxtəlif mərhələləri, dünya ədəbiyyatının nəzəri problemlərinin, cərəyan, axın, metod, lirik janrlar və s. kimi yaradıcılıq istiqamətlərinin öyrənilməsi həm də ədəbiyyatşünaslıq tariximizin gələcəkdə yazılacaq əsərlər üçün zəmin rolunu oynaya biləcəyi nəzərdə tutulmuşdur.

Dissertasiya işi özünün araşdırma obyekti və predmeti, təhlil istiqamətləri və elmi qənaətləri ilə bu tipli tədqiqat işləri üçün müəyyən əhəmiyyətə malikdir. Bu dissertasiyada gəlinmiş qənaətlərdən ədəbiyyatşünaslıq üzrə yazılacaq proqramlarda, metodik göstəriş, dərs və metodik vəsaitlər, dərslik, nəzəri araşdırmalarda, ali məktəblərdə Azərbaycan ədəbiyyatşünaslığının və ədəbiyyat nəzəriyyəsinin tədrisində istifadə oluna bilər. Bundan başqa tədqiqatın nəticələrindən müqayisəli-tipoloji ədəbiyyatşünaslıqda, Azərbaycan ədəbiyyatşünaslığının dünya ədəbiyyatı ilə əlaqələri və ona inteqrasiya olunma istiqamətində yazılacaq dissertasiyalarda və monoqrafik araşdırmalarda yararlanıla bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya Gəncə Dövlət Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrasında aprobasiyadan keçmişdir. Dissertasiyanın əsas müddəaları müəllifin Respublika və Azərbaycandan kənarda nəşr olunan jurnallarda, dərgilərdə, məcmuələrdə, Respublika və Beynəlxalq səviyyəli konfranslardakı məruzə və materiallarda öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Gəncə Dövlət Universiteti.

**Tədqiqatın strukturu.** Tədqiqat işi giriş (14 181 şərti işarə), üç fəsil (birinci fəsil iki paraqraf – 52 457 şərti işarə, ikinci fəsil iki paraqraf – 76 763 şərti işarə, üçüncü fəsil üç paraqraf – 112 100 şərti işarə), nəticə (7 101 şərti işarə) və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiya işinin ümumi həcmi 262 602 şərti işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Tədqiqatın "**Giriş**" hissəsində mövzunun aktualığı əsaslandırılır, problemin öyrənilməsi, tədqiqat işinin obyekt və predmeti, məqsəd və vəzifələri müəyyənləşdirilir, nəzəri-metodoloji baza, işin elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti qeyd edilir, aprobasiya və strukturu haqqında məlumat verilir.

Tədqiqatın birinci fəsli "**Dünya ədəbiyyatının nəzəri problemlərinin Azərbaycan ədəbiyyatşünaslığına daxil olması** " adlanır. İki paraqrafdan ibarət bu fəslin birinci paraqrafı "**Dünya ədəbiyyatının nəzəri məsələləri Azərbaycanda hazırlanmış ədəbiyyat nəzəriyyəsi və ədəbiyyatşünaslıq mənbələrində**" kimi formalaşdırılmışdır. Burada biz XX əsrin əvvəllərindən başlayaraq dünya ədəbiyyatının nəzəri problemlərinin Azərbaycanda hazırlanmış dərs vəsaitləri, dərslik, lüğət, sorğu kitabları və monoqrafik araşdırmalara etdiyi təsirdən danışmağı və onun dinamikasına nəzər salmağı zəruri hesab etmişik. Bununla belə, XX əsrə qədər olan ümumi mənzərənin təsviri üçün M.F.Axundzadənin qələmə aldığı tənqidi əsərlərində Dünya ədəbiyyatının problemlərinin nəzəri-estetik prinsiplərindən çıxış edərək diqqət yetirməyi üstün tutub, XIX əsrin sonu - XX əsrin əvvəllərindən yaranan Azərbaycan ədəbiyyatşünaslığının yeni bədii-estetik səmtə yön almasını Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları"[2] və ondan əvvəl 1903-cü ildə yazdığı "Azərbaycan türklərinin ədəbiyyatı"[3] adlı kitabçadan başlamağı zəruri hesab etdik.

[2] Köçərli, F. Azərbaycan ədəbiyyatı tarixi materialları: [2 cild, 4 hissə] / F.Köçərli. – Bakı: – 1925-1926.

[3] Köçərli, F. Azərbaycan türklərinin ədəbiyyatı // Tərcüman qəzeti. –1903, 17 oktyabr, № 46.

Məsələyə ona görə belə rakursdan yanaşırıq ki, M.F.Axundzadə tənqidçilik, ədəbiyyat tarixçiliyi və təhlilçiliyə Qərb ədəbiyyatşünasları kimi nəzər saldığından, F.Köçərli də öz növbəsində Azərbaycan ədəbi irsini elmi ardıcıllıqlar prinsipləri əsasında öyrənməyə səy göstərirdi. Eyni zamanda bunu o, rus ədəbiyyatşünasları P.A.Pıpin, V.A.Nikolski, M.V.Speranski və başqa bu kimi bədiyyat mütəxəssislərinin yaradıcılığına yaxından bələd olmaqla ortaya qoyurdu. Bu həm də o dövrə təsadüf edirdi ki, həmin vaxtlar Azərbaycan ədəbiyyatşünaslığı hələ də təzkirə, cüng və müntəxəbat kimi nümunələrdən istifadə etməyə davam edirdi.

Azərbaycan ədəbiyyatşünaslığının dünya ədəbiyyatının nəzəri problemlərindən yararlanması XX əsrin ilk onilliklərində Hüseyn Cavid və Abdulla Şaiqin hazırladıqları "Ədəbiyyat dərsləri"[4] kitabının yazılmasına da öz pozitiv təsirini göstərmişdi. Təsadüfi deyildir ki, müəlliflər bu dərslikdə türk ədəbiyyatı nümayəndələrinin əsərlərinə üstünlük verir, yeni ədəbiyyat məsələlərindən bəhs etdikdə isə Qərb ədəbiyyatı təmsilçilərinin əsərlərinə müraciəti zəruri hesab edirdilər. Burada əksini tapmış mövzularda ədəbiyyat və incəsənətin tərifi, bədii əsərlə bağlı mülahizələr, üslub və ifadə sistemi, nəzm və nəsr, şeir vəznləri, bədii ədəbiyyatın növləri və s. kimi məsələlərin yer alması müəlliflərin Şərq və Qərb ədəbi-nəzəri sistemlərindən yararlandıqlarını ortaya qoyurdu.Dünya ədəbiyyatının nəzəri problemlərinin Azərbaycan ədəbiyyatşünaslığına daxil olmasını müəllif kollektivi tərəfindən yazılmış iki cildli "Ədəbiyyatdan iş kitabı"nda[5] da görmək mümkündür. 1928-ci və 1932-ci illərdə işıq üzü görmüş bu cildlərdə sovet ideologiyasının əksər tərəfləri bütün qəddarlığı ilə öz əksini tapmasına baxmayaraq, burada ədəbiyyatın forma və məzmunu, ədəbi prosesdə müəllif fərdiyyəti, onlar arasında oxşar və fərqli xüsusiyyətlər, bədii prosesin ictimai-iqtisadi determinizminin (bütün hadisələrin səbəb-məqsəd qanunauyğunluğuna söykənilərək) izahı verilmişdir. Kitabda ədəbi nümunələr və baxışlar marksist prinsiplər nəzəriyyəsinə əsaslansa da, burada konstruktivizm və futurizm ünsürləri, şeir texnikası, ədəbi cərəyan və ədəbi məktəb məsələlərinə dünya ədəbiyyatı problemləri rakursundan baxış özünü əks

---

[4] Hüseyn, C. Ədəbiyyat dərsləri / C.Hüseyn, Ş.Abdulla. – Bakı: Hökumət mətbəəsi, – 1919.

[5] Ədəbiyyatdan iş kitabı: [2 cilddə] / Kollektiv müəlliflər. – Bakı:Azərnəşr, – 1928-1932.

etdirməkdədir.

"Ədəbiyyatdan iş kitabı" ilə eyni dövrdə qələmə alınmış A.V.Baqrinin "Ədəbiyyat biliyinə başlanğıc"[6] dərsliyində də incəsənət və ədəbiyyatın mənşəyi, ədəbi təsir, ədəbiyyat elminin tarixi və inkişafı, üslubiyyatın əsasları, həmin illərin ideoloji-siyasi durumu, S.V.Plexanovun monist (vahid başlanğıca, yaxud substansiyaya söykənmə) nəzəriyyəsi və s. özünü göstərirdi. Lakin V.İ.İvanov, V.B.Tomaşevski, N.İ.Aşmarin, V.V.Siplovski, R.İ.Şir və digərlərinin nəzər nöqtələrinin işıqlandırılması ilə yanaşı, Qrimm qardaşlarının tezisləri, Benfeyin iqtibas nəzəriyyəsi, rus və Qərbi Avropa ədəbiyyatı nümunələrinin kitabda dominant kimi götürülməsi, müəllifin Şərq mənşəli janrları rus ədəbiyyatı materialları nümunələri ilə izah etməsi, qəsidə, qəzəl, məsnəvi və s. kimi örnəkləri rus ədəbiyyatı janrları altında nəzərdən keçirib, "Jukovskinin, Puşkinin, Lermontovun qəzəlləri" ifadəsini işlətməsi A.V.Baqrinin Şərq poetikasından xəbərsiz olduğunu təsdiqləyirdi.

Cəfər Xəndanın 1940-cı ildə və bundan sonra 1951 və 1958-ci illərdə təkrar nəşr olunmuş əvvəl "Ədəbiyyat teoriyası"[7] (sonralar "Ədəbiyyat nəzəriyyəsi") adı ilə işıq üzü görmüş orta məktəbin VIII –X sinifləri üçün kitabı da nəzəri problemləri marksist-leninçi estetika prinsiplərinə söykənilərək qələmə alınmaqla ədəbiyyat məsələlərini kommunist-proletar ideologiyası rakursundan işıqlandırır, ədəbiyyat, sənət, mədəniyyət, incəsənət və s. kimi fenomenləri məhz qeyd etdiyimiz müstəvidə təhlil obyekti kimi nəzərdən keçirirdi. 1958-ci ildə M.Rəfilinin "Ədəbiyyat nəzəriyyəsinə giriş"[8] dərs vəsaitində yer almış nəzəri müddəalar isə görkəmli rus ədəbiyyatşünası və şeirşünası B.Tomaşevskinin "Ədəbiyyat nəzəriyyəsi. Poetika"[9] kitabına söykənilərək nəşr edilməsi dünya, rus və Azərbaycan ədəbiyyatı nümayəndələrinin yaradıcılığı, Avropa F.Petrarka, Leonardo da Vinçı, Didro, Lessinq, rus ədəbiyyatı nümayəndələri Lomonosov, Sumarokov,

---

6 Baqri, A. Ədəbiyyat biliynə başlanğıc / A.Baqri. Lenin adına olan Azərbaycan Dövlət Darilfünunu. Pedaqoji fakültə. Tələbələri üçün leksiya və vəsait. – Bakı: Azərbaycan Dövlət Darilfünü. – 1930.

7 Xəndan, C. Ədəbiyyat teoriyası: Natamam və orta məktəblər üçün / C.Xəndan, – Bakı: Azənəşr, –1940.

8 Rəfili, M. Ədəbiyyat nəzəriyyəsinə giriş / M.Rəfili. – Bakı: –1958. – 275 s.

9 Томашевский, Б.В. Теория литературы. Поэтика: Учеб.пособие / Б.В.Томашевский. – Ленинград: Государственное издательство, – 232 с.

Radisşev, Çernışevski, Dobrolyubov, Saltıkov-Şedrin, marksist-leninçi ədəbiyyat və s. kimi məsələlərə baxış bir sıra hallarda müqayisəli-tipoloji müstəvidə incələnirdi.

Dünya ədəbiyyatının nəzəri problemlərinin Azərbaycan ədəbiyyatşünaslığına gətirilməsi Mir Cəlal və P.Xəlilovun "Ədəbiyyatşünaslığın əsasları"[10] dərsliyində təqdim olunarkən ədəbiyyatın xeyli məsələləri – tipiklik problemi, ədəbiyyatın idraki əhəmiyyəti, klassik irsə münasibət, forma və məzmun vəhdəti, müxtəlif ədəbi cərəyanlar və s. əsaslandırılması üçün ingilis, fransız, rus və dünya ədəbiyyatından gələn nümunələr əsasında izah olunur və möhkəmləndirilirdi. Ə.Mirəhmədovun "Ədəbiyyatşünaslıq terminləri lüğəti"ndə[11] dünya, Şərq, Qərbi Avropa və rus ədəbiyyatının nəzəri problemlərindən qaynaq almaqla Yaxın və Orta Şərq poetikasından gələn bəyan, bəlağət, qələndəri, qissə, əbcəd və s. yanaşı, Qərb ədəbiyyatı tarixi, nəzəriyyəsi, ədəbi tənqidə aid Aleksandr şeiri və s. kimi terminoloji ifadələrin izahını verməklə əsas etibarı ilə məşhur ədəbiyyatşünaslar L.Timofeyevin və S.Turayevin "Slovar literaturovedçeskix terminov"[12] və "Kratkaya literaturnaya ensiklopediya"[13] kimi mənbələrə, A.Kvyatkovski, Y.Proxorov, A.Sokolov və digər alimlərin bədii ədəbiyyat, realizm, romantizm, sosialist realizmi və s. kimi Qərbi Avropa və rus ədəbiyyatından gələn anlayışların izahına daha çox yer verilirdi.

A.Hacıyevin "Ədəbiyyat nəzəriyyəsi"[14] kitabı daha sonralar 1999, 2005, 2009-cu illərdə "Ədəbiyyatşünaslığın əsasları"[15] adıyla nəşr olunmaqla Avropa və Amerika ədəbiyyatlarında işlənmiş janr, ədəbi cərəyan və istiqamətlərlə daha çox zənginləşdirilmiş, O.Balzak, Y.Molyer, P.Kornel, Y.Rasin, Y.Lafonten, rus ədəbiyyatı nümayəndələri

---

[10] Mir Cəlal. Ədəbiyyatşünaslığın əsasları / Mir Cəlal, P.Xəlilov. – Bakı: Maarif, – 1972.

[11] Ədəbiyyatşünaslıq terminləri lüğəti / Tərtib edən Ə.M.Mirəhmədov. –Bakı: Maarif, – 1988. – 268 s.

[12] Словарь литературоведческих терминов / Ред. С 48 сост.: Л. И. Тимофеев и С. В. Тураев. Москва: Просвещение, – 1974. – 509 с.

[13] Краткая литературная энциклопедия: [в 9 томах] / Ред. коллегия А. А. Аникст, В. В. Виноградов, В. В. Жданов, Д. С. Лихачев, Ю. Г. Оксман, Л. И. Тимофеев и др. – Москва: Сов. Энцикл., – 1962—1978.

[14] Hacıyev, A. Ədəbiyyat nəzəriyyəsi / A.Hacıyev. – Bakı: Mütərcim, – 1996. –376 s.

[15] Hacıyev, A. Ədəbiyyatşünaslığın əsasları: Ali məktəblərin filologiya fakültələri üçün dərslik / A.Hacıyev. – Bakı: Zaman, 1999. – 420 s.

M.Lomonosov, V.Trediakovski, A.Sumarokov, F.Fonvizin, Q.Derjavin və b. yaradıcılığındakı ənənə və novatorluq, yazılı ədəbiyyat və folklor, milli forma, ədəbi əlaqə və ədəbi təsir məsələləri və s. dünya ədəbiyyatı fonunda nəzərdən keçirilirdi.

Cənubi Azərbaycandan olan C.Heyətin "Ədəbiyyatşünaslıq"[16], R.Yusifoğlunun "Ədəbiyyatşünaslığın əsasları"[17], X.Əlimirzəyevin "Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları"[18], R.Əliyevin "Ədəbiyyat nəzəriyyəsi"[19], N.Qəhrəmanlının "Ədəbiyyat nəzəriyyəsi"[20], V.Əhmədin "Ədəbiyyatşünaslıq"[21], A.Əliyevin "Ədəbiyyat nəzəriyyəsindən mühazirələr"i[22] və başqalarının hazırlayıb araya-ərsəyə çıxardıqları dərs vəsaitləri və dərsliklərdə, xüsusən X.Əlimirzəyevin müəllifi olduğu kitabda Qərbi Avropa və rus nəzəri təfəkkürünə söykənilməklə bir sıra məsələlər konseptual baxış bucağından işıqlandırılırdı.

M.Əliyevin 2009-cu ildə nəşr olunmuş "Ədəbiyyat nəzəriyyəsi" 2012-ci ildə "Ədəbiyyat nəzəriyyəsinin əsasları"[23] adı alında ikinci dəfə çap olunarkən burada daha çox Şərq poetik düşüncə sistemi, akademik üslub, poetik ifadə tərzi, ritm, qafiyə problemləri və s. izahında dünya ədəbi-nəzəri fikrinin nailiyyətlərindən gərəyincə yararlanılmışdır. N.Şəmsizadənin "Ədəbiyyat nəzəriyyəsi"[24] dərsliyində əgər, bir tərəfdən, ənənəvi ədəbi-bədii nümunələr nəzərdən keçirilmişdirsə və burada marksist metodologiya, rus sovet alimlərinin konsepsiyasına söykənmə, Avropa mütəfəkkirlərinin fikir və mülahizələri ortaya qoyulur. Digər tərəfdən isə Şərq poetika kitablarına, estetik risalələrə, Yaxın Şərq

---

[16] Heyət, C. Ədəbiyyatşünaslıq / C.Heyət. – Bakı: Elm, – 1996. – 216 s.

[17] Yusifoğlu, R. Ədəbiyyatşünaslığın əsasları: Filologiya fakültəsinin tələbələri üçün dərs vəsaiti / R.Yusifoğlu. – Bakı: Sabah, – 2001. – 228 s.

[18] Əlmirzəyev, X. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları / X.Əlmirzəyev. – Bakı: Nurlan, – 2008. – 431 s.

[19] Əliyev, R. Ədəbiyyat nəzəriyyəsi / R.Əliyev. – Bakı: Mütərcim, – 2008. – 360 s.

[20] Qəhrəmanlı, N. Ədəbiyyat nəzəriyyəsi / N.Qəhrəmanova. – Bakı: BQU nəşriyyatı, – 2008. – 106 s.

[21] Əhməd, V. Ədəbiyyatşünaslıq: Filologiya fakültəsinin tələbələri üçün dərslik. / V.Əhməd. – Bakı: Müəllim, – 2008. – 149 s.

[22] Əliyev, A. Ədəbiyyat nəzəriyyəsindən mühazirələr / A.Əliyev. – Bakı: – 2010. – 214 s.

[23] Əliyev, M. Ədəbiyyat nəzəriyyəsinin əsasları / M.Əliyev. – Bakı: Elm və təhsil, İkinci nəşr. – 2012. – 480 s.

[24] Şəmsizadə, N. Ədəbiyyat nəzəryyəsi: dərslik / N.Şəmsizadə. – Bakı: Prosres nəşriyyatı, – 2012. – 434 s.

şərhçilik məktəbi, Hind sankrit poetikası, Quranın şərhləri, qədim yunan və Roma nəzəriyyəçiləri ilə yanaşı, Hegel, Marks, V.Belinski, Q.Pospelov, S.Tokarev, İ.Filştinski, Q.Fridlender, M.Xamrayev, L.Timofeyev, V.Şerbina, B.Eyxenbaum və digər nəzəriyyəçilərin fikir və nəzər nöqtələrinə, ensiklopediyalara, ədəbiyyatşünaslıq üzrə lüğətlərə, fəlsəfi-estetik mənbələrə müraciət olunur. Bir sıra digər nəzəri məsələlər isə A.Toynbi, H.Qadamer, Y.Derrida, M.Fuko, R.Bart, K.Yaspers, Y.Liotar, Y.Delez, M.Lotman, U.Priqojin və başqalarının baxışları ilə zənginləşdirilmişdir.

Birinci fəslin ikinci paraqrafı "**Dünya ədəbi prosesinin Azərbaycanda yaranan milli bədii-nəzəri sistemin formalaşmasına təsiri**" adlanır. XX əsrdə dünya ədəbiyyatşünaslığı müqayisəli ədəbiyyatşünaslıq kontekstində inkişaf etdirildiyindən Azərbaycan ədəbiyyatşünasları A.Alməmmədov, H.Babayev, S.Əsədullayev, G.Sultanova, N.Məmmədov-Tağısoy, L.Gərayzadə, T.Şərifli, Ə.Xəlilov və başqaları əsərlərində milli ədəbiyyatşünaslığın bu kontekstdə inkişaf etdirilməsinin daha çox qayğısına qalırdılar. Belə olduqda Azərbaycan ədəbiyyatşünaslığı müəyyən tarixi mərhələlərdə getmiş mürəkkəb dinamik makrosistemin hər hansı bir yolu kimi inkişaf etdirilirdi. Ədəbiyyatımız digər ədəbiyyatlar, xüsusən Şərq, Qərbi Avropa, rus, dünya ədəbiyyatının aparıcı lokomotivinə genetik, kontakt, tipoloji qarşılıqlı əlaqələr və s.köməyi ilə qoşulurdu.

Ədəbi prosesin inkişafı, bir tərəfdən, ardıcıl və sinxron olaraq getmişdirsə, digər tərəfdən bədii fikrə nəzərəçarpacaq dərəcədə təsir edən M.F.Axundzadə yaradıcılığı onun nəzəri məsələlərinə XIX əsrin ikinci yarısından daha çox təkan vermişdir. M.F.Axundzadənin nəinki Şərq, həm də Qərb ədəbi-nəzəri və fəlsəfi-estetik fikrinin dəyərli örnəklərini xalqın anladığı, həzm edə bildiyi dildə ortaya qoyması, dünya ədəbiyyatının nəzəri problemlərinin ədəbiyyatşünaslığımıza daşınmasında mühüm rol oynadı. Dünya ədəbiyyatının nəzəri məsələləri ədəbiyyatşünaslığımıza bədii-poetik tərcümə yönündə, ədəbi əlaqələr istiqamətində, iki ədəbiyyatın (Azərbaycan-ərəb, Azərbaycan-rus, Azərbaycan-Türkiyə, Azərbaycan-alman, Azərbaycan-ingilis, Azərbaycan-Skandinaviya ölkələri, Azərbaycan-qazax və b.) və bir sıra ədəbiyyatların müqayisəli-qarşılaşdırıcı kontekstdə öyrənilməsini aktuallaşdırır. Elə buna görə də, çağdaş mərhələdə Azərbaycan-Dünya

ədəbiyyatı qarşılıqlı əlaqələrinin dərindən və ətraflı öyrənilməsinə ehtiyac duyulmaqdadır. Problemin sistemli öyrənilməsi üçün ümumiləşdirici və aparıcı spektrlərlə yanaşı, ümumnəzəri prinsiplər, metodoloji məsələlər, tipoloji və qarşılaşdırıcı aspektlər təhlil olunmalı, məsələyə tarixilik prinsipindən yanaşılmalı, zəruri mərhələlər – qədim, orta əsrlər, yeni dövr, XIX əsr, XX əsrin əvvəlləri, XX əsrin ortalarına qədərki dövr, 1960-1980-ci illər, 1990-2000-ci illərdə gedən proseslər diferensiasiya edilməklə əsaslı şəkildə bölgülər üzrə öyrənilməlidir. Bütün bunlar göstərir ki, müasir mərhələdə dünya ədəbiyyatının nəzəri problemlərinin Azərbaycan ədəbiyyatşünaslığında çeşidli aspektlərinin öyrənilməsində istiqamət və cəhətlər yetərincədir.

2000-ci illərin əvvəllərində Avropa ədəbiyyatşünaslığı ilə Azərbaycan ədəbi-nəzəri fikrinin bəzi məsələlərinə toxunan A.Əsədova Avropa ədəbiyyatşünaslığı ənənələrinin Azərbaycan ədəbi-nəzəri fikrinin formalaşmasına təsirini izlədikdə ümumdünya ədəbi-bədii sisteminin tərkib hissələri kimi həm təsir, həm də qarşılıqlı təsir amilinin nəzərə alınmasını diqqət mərkəzinə çəkmişdi[25]. Odur ki, dünya ədəbiyyatının da nəzəri problemləri də təxminən belə bir rakursdan tədqiq edilməsinə ehtiyac vardır. Tədqiqat prosesində müəyyənləşdirdik ki, dünya ədəbiyyatının nəzəri problemlərinin Azərbaycan ədəbiyyatşünaslığına daxil olması zaman keçdikcə, mərhələlər bir-birini əvəz etdikcə qırılmaz, bölünməz xarakter alıb, dialektik əlaqə kəsb etdikcə bu əlaqələr dərinləşir və onların çeşidli tərəflərinin öyrənilməsi zəruriləşir. Bütün bunlar göstərir ki, dünya ədəbiyyatının çoxsaylı məsələləri öyrənilərkən onların ədəbiyyatşünaslığımızda tipoloji oxşarlıqları axtarılmalı, milli magistral istiqamətlər, ədəbi cərəyanlar, tipoloji kateqoriyalar, janr qrupları, yaradıcılıq metodu və s. kimi məsələlərə konseptual münasibət ortaya qoyulmalıdır.

Tədqiqatın birinci fəslini əhatə edən əsas müddəalar və materiallar aşağıdakı araşdırmalarımızda öz əksini tapmışdır.[26]

Tədqiqatın **“Şərq, Qərbi Avropa və rus romantizminin**

---

[25] Əsədova, A. Azərbaycan ədəbiyyatşünaslığı və ədəbi-nəzəri fikri / A.Əsədova. – Bakı: Elm, – 2006. – s. 259

[26] İbrahimova, N. Şərq ədəbi-nəzəri fikri və Azərbaycan ədəbiyyatşünaslığının inkişafı // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri. – 2020. № 6, – s. 257-268; Dünya ədəbi-nəzəri fikri və Azərbaycan ədəbiyyatşünaslığı // –Sumqayıt: Sumqayıt Dövlət Universiteti. “Elmi xəbərlər”. Sosial və humanitar elmlər bölməsi. – 2020. cild 16, № 4, – s. 50-54.

**Azərbaycan ədəbiyyatşünaslığının inkişafında rolu"** adlanan ikinci fəsli də iki paraqrafdan ibarətdir. **"Azərbaycan ədəbiyyatşünaslığının təşəkkülündə Şərq və Qərb ədəbi-nəzəri fikrinin mərhələlərinin iştirakı**" adlı birinci paraqrafda biz ədəbiyyatşünaslığımızın köklü məsələlərini səmərəli araşdırmaq üçün onun problemlərinin öz daxilindəkilərlə öyrənilməsini uğursuz və məntiqsiz hesab etməklə, həm də müəyyənləşdirdik ki, dünya, Şərq, Qərbi Avropa və rus ədəbi-nəzəri fikrindən yararlanma lazımınca araşdırılmadan irəli doğru hərəkət vektorunu ortaya çıxarmaq, ümummetodoloji koordinatları, bu koordinatların inkişaf mexanizmini müəyyənləşdirmədən mümkün deyildir. Tədqiqat prosesində belə bir məsələ də ortaya çıxdı ki, ədəbi-nəzəri fikrimiz hələ orta əsrlərdən başlayaraq Şərq ədəbiyyatı, fəlsəfi fikri, poeziyası mənbələrindən, Şərq poetikasından, Şərq fəlsəfi-estetik düşüncəsindən qaynaq alaraq inkişaf edirdi. M.Şəhəvatın, X.Təbrizinin, Q.Təbrizinin, N.Tusinin, Ə.Təbrizinin, R.Təbrizinin və başqalarının poeziya nəzəriyyəsinə həsr olunmuş əsərləri, bədii forma və məzmun, məcazlar sistemi və məsələlərə baxışı, Füzulinin əsərlərində yer almış idrak nəzəriyyəsi, elmin idrak süzgəcindən keçirilməsi ilə idrak elminin müqayisəsi, ərəb bədii-estetik fikrindən əxz edilmiş klassik poetika, Quran bəlağətinin tərkib hissələri, onların Azərbaycan ədəbiyyatşünaslığında formalaşması, konkret nümunələr əsasında yer alması müəyyənləşdirilmişdir.

XX əsrdə araya-ərsəyə gəlmiş ədəbiyyat nəzəriyyəsi və ədəbiyyatşünaslığın əsasları kimi mənbələri nəzərdən keçirərkən müəyyən olundu ki, Azərbaycan sovetlər ölkəsinin tərkibində olduğu mərhələdə dünya ədəbiyyatının nəzəri problemlərinə inhisarçılıq, proletar və kommunist ideologiyası rakursundan yanaşılsa da, xeyli müəlliflərin konsepsiyalarında ədəbiyyatşünaslığımızın Şərq poetikasının spesifik izahı ilə yanaşı, Qərbi Avropa, Aristotelin "Poetika", "Siyasət" və "Ritorika", İntibah dövrü sənətkarları Servantes, Lope de Veqa, Didro, Lessinq, Hegel və b. əsərləri, Bualonun "Poeziya sənəti" və s. bu kimi müəlliflərlə yanaşı, rus ədəbi-nəzəri fikrinin nümayəndələri M.Lomonosov, A.Radişşev, V.Belinski, A.Hertsen, N.Çernışevski, N.Dobrolyubov, N.Saltıkov-Şedrin, N.Nekrasov və digərlərinin ədəbiyyatın inkişafı ilə bağlı irəli sürdüyü mülahizələrdən bəhs olunmuş, yararlanılmışdır. Mənbələrlə tanış olduqca dünya ədəbi-nəzəri fikrinin

Azərbaycan ədəbiyyatşünaslığına təsirinin uzun və mürəkkəb tarixi proseslərin və hadisələrin gedişi nəticəsində ortaya çıxdığını, XI əsrdən başlayan mənimsəmənin sonrakı mərhələ və yüzilliklərdə davam etdiyini görmək mümkün olur. Bu istiqamətdə indiyə qədər aparılan tədqiqatlar nə qədər ardıcıl olsa da, çağdaş dövrümüzdə daha dərinləşmiş aspekdə dünya, Şərq – ərəb və fars ədəbi-nəzəri düşüncəsinin, Qərb və rus ədəbiyyatının Azərbaycan bədii-fəlsəfi düşüncəsinə, ədəbiyyatşünaslığına, estetik yanaşmalarına təsiri daha dərinləşdirilmiş və konsepsiyalaşmış rakursdan öyrənilməlidir.

“**Romantizm nəzəriyyəsinin çeşidli problemlərinin Azərbaycan ədəbiyyatşünaslığında işlənilməsi”** adlı ikinci fəslin ikinci paraqrafında romantizmin bir bədii cərəyan və istiqamət kimi Avropa və Amerika mədəni-ədəbi kontekstində XVIII əsrin sonları – XIX əsrin birinci yarısından ortaya çıxıb, Almaniyadakı Yen məktəbi ətrafında birləşmiş yazıçı və filosoflar V.Q.Vankenroder, Lüdviq Tik, Novalis, F. və A.Şlegel qardaşlarının köməyi ilə təşəkkül tapıb, romantizm fəlsəfəsinin F.Şlegel və F.Şellinq, V. və Y.Qrimm qardaşlarının, Hofman, H.Heyne və başqalarının yaradıcılığında ortaya qoyduqları nümunələri nəzərdən keçirildikdən sonra, romantizmin bir axın olaraq rus poeziyasına V.Jukovski, A.Batyuşkov, A.Puşkin, N.Qoqol, M.Lermontov və başqalarının bədii arsenalında yer alıb, inkişaf etdirilməsi, Fransada, İngiltərədə, İtaliyada, Polşada, Macarıstanda, Balkan ölkələrində, Çexiyada və s. bu cərəyanın tanınmış nümayəndələrindən bəhs edib, XIX əsrin sonu, XX əsrin əvvəllərində A.Şaiq, Ə.Hüseynzadə, M.Hadi, H.Cavid və b. yaradıcılığının fərdi və ümumi cəhətləri öyrənilmişdir. Yarımfəsilin başlıca məqsədi romantizm nəzəriyyəsinin Azərbaycan ədəbiyyatşünasları tərəfindən işlənilməsi olduğundan burada problemin milli ədəbiyyatşünaslığımızda hansı rakurslardan işıqladırılmasına daha çox diqqət yetirilməsi üstün tutulmuşdur. Odur ki, romantizmin müxtəlif tərəflərini təhlil obyekti kimi diqqət mərkəzinə çəkmiş azərbaycanlı və türkiyəli alimlərin Ə.Hüseynzadə, M.Cəfər, Mir Cəlal, K.Talıbzadə, O.Bayramlı, M.Əlioğlu, A.İbadoğlu, A.Hacıyev, R.Azadə, İ.Vahabzadə, Q.Quliyev, T.Əfəndiyev, Ş.Vəliyev, S.Qaraşova, Ə.Saraclı, A.Kabaklı, M.Ünlü və digərlərinin nəzəri baxışlarını araşdırmağa, Azərbaycan romantizmi ilə Avropa və rus romantizm nəzəriyyəsi ilə tutuşdurmağa, ortaq və fərqli məqamların izahına yer verilmişdir. Bundan başqa,

problem müqayisəli-tipoloji kontekstdə öyrənilərkən bu istiqamətdə aparılan çalışmalara və işləmələrə XIX əsrin ikinci yarısından başlayaraq qardaş Türkiyədə gedən intibah proseslərinin incələnməsini, xüsusən Tənzimat dönəminin təsirindən danışmağı da zəruri hesab etmişik.

Bu paraqrafda Azərbaycanda romantik meyil və düşüncənin inkişafına Rusiya, Fransa, İngitlərə, Almaniya, İtaliya və dünyanın digər inkişaf etmiş ölkələrindən gələn ictimai-siyasi axın və proseslərin təkanverici təsiri vurğulanmışdır. Türkiyə ədəbiyyatında gedən proseslərdə isə Namiq Kamal yaradıcılığı daha çox ön plana çıxarılmışdır.

Azərbaycan ədəbiyyatşünaslarının romantizmlə bağlı müddəalarına baxış sərgilənərkən biz Ə.Hüseynzadənin ədəbi-estetik konsepsiyasında Azərbaycan romantizminin təşəkkülü və inkişafı ilə bağlı yanaşmaları daha çox qabartmağa, A.Səhhətin manifest xarakterli "Tazə şeir necə olmalıdır" məqaləsindəki tezislərə xüsusilə diqqət çəkmiş, Ə.Hüseynzadənin yaratdığı və mühərriri olduğu "Füyuzat" jurnalında yer almış rus, türk, dünya klassiklərinin əsərlərinə verilən önəmi ön planda qoymaqla dəyərləndirmişik. Şekspir, Heyne, Höte, Bayron, M.Naci, A.Cövdət, N.Kamal, M.Ə.Rəcaizadə, L.Tolstoy, F.Dostoyevski, A.Çexov və başqalarının yaradıcılığından gələn çeşidli bədii vüsətlərə nəzər salıb, təhlillər aparmışıq.

Romantizm ədəbi-estetik cərəyanının Azərbaycan ədəbiyyatına və ədəbiyyatşünaslığına daxil olmasını izləyərkən onu da ortaya çıxardıq ki, Şərq və Qərb ədəbi-nəzəri fikrindən ədəbiyyatşünaslığımıza gələn romantizm nəzəriyyəsinin çeşidli problemləri XX əsrin əvvəllərindən başlamaqla ardıcıl olaraq öyrənilmiş, bu cərəyanın bir sıra tərəflərinin araşdırılması, həm də onun milli ornamentlərinin araya-ərsəyə gətirilməsi ilə əlamətdar olmuşdur.

Tədqiqatın ikinci fəsli ilə bağlı apardığımız araşdırmalar öz əksini aşağıdakı araşdırmalarımızda əksini tapmışdırş.[27]

[27] İbrahimova, N. Avropa və rus romantizminin Azərbaycan romantizminin inkişafına təsiri // "Filoloji elmlər innovativ tədqiqatlar kontekstində". Beynəlxalq elmi-praktik onlayn konfransın materialları. – Bakı: – 2020. – s. 237-240; The Emergence of World Romanticism into Azerbaijani Literaturefrom the XIX th Century Tuijin Jishu // – Journal of Propulsion Technology. –2024. Vol. 45 No.1, –s. 4483-4486; Aesthetic Principles of European and Russian Romanticism, Azerbaijani Romanticism // – Нижневартовск: Бюллетень науки и практики. – 2024. Т. 10. № 6, – с. 9-13.

Tədqiqatın **“Realizm cərəyanı, formalaşmasına dünya ədəbi-nəzəri fikrinin təsiri, Avropa və rus mənşəli poetik janrlar və Azərbaycan ədəbiyyatşünaslığı”** adlanan üçüncü fəslin “**Realizm cərəyanının yaranması, onun Azərbaycan ədəbiyyatına daxil olması və nəzəri-estetik fikrin formalaşmasında yeri”** adlı birinci paraqrafında realizmin ədəbi-estetik cərəyan olaraq Qərbi Avropa sənətinə və ədəbiyyatına gəlişi və onun bir sənət fenomeni olaraq xarakterlərin yapılmasına təsiri, təkrarsız bədii obrazların yaradılmasına nail olmanı nəzərdə tutuduğunu qeyd etməklə yanaşı, burada Qərbi Avropa və rus ədəbiyyatında təşəkkül tapıb, inkişaf etmiş bu istiqamətin, cərəyanın Azərbaycan ədəbiyyatına daxil olduqdan sonra özünəməxsus milli keyfiyyət qazanmasına və onun mühüm bir cərəyan kimi M.F.Axundzadə yaradıcılığından başlayaraq ədəbiyyatşünaslığımızda çoxsaylı estetik xüsusiyyətlərinin araşdırılmasına səy göstərmişik. Burada biz əsasən İ.Həbibbəylinin Azərbaycan ədəbiyyatının dövrləşməsi ilə bağlı mərhələlərinə yanaşmasından, Y.Qarayevin milli realizmə dair konsepsiyasından və T.Məmmədin realizmlə bağlı mülahizələrini əldə rəhbər tutaraq hərəkət etmiş və münasibətlər ortaya qoymuşuq.

Bu paraqrafda diqqət məkəzinə çəkdiyimiz mənbələrdən belə bir yanaşma ortaya çıxmışdır ki, Azərbaycan ədəbiyyatşünaslığında realizmin estetik xüsusiyyətlərinin mənimsənilməsi, onun dünya ədəbiyyatının nəzəri problemlərini “həzm” etməsi bu elm sahəsində bir sıra uğurların ortaya qoyulmasına xüsusi təkan vermişdir. Azərbaycan ədəbiyyatşünaslığının dünya ədəbiyyatlarından əxz etdiyi xüsusiyyətlər, çoxtərəfli və rəngarəng əlaqələr onun bu cərəyanın milli bədii-estetik fikrimizdə inkişafı üçün əsaslı zəmin yaratmışdır. Realizm cərəyanının çeşidli tərəflərini öyrənərkən Şərqdən gələn ənənələrlə sonrakı dövrdə Rusiya və Avropadan daxil olmuş bir sıra elementlərin ədəbiyyatşünaslıq tariximizin panoramının yaradılması üçün mühüm dəyər daşımışdır. Problemin mahiyyətinə əsaslı şəkildə nüfuz etmək üçün biz bu sahə üzrə tanınmış mütəxəssislər N.İ.Konradın, İ.Q.Neupokoyevanın, S.M.Petrovun və digər rus nəzəriyyəçilərinin əsərləri ilə yanaşı, Azərbaycan alimləri M.Quliyev, M.Arif, K.Talıbzadə, B.Nəbiyev, H.Qasımov, S.Tağızadə, K.Əliyev, T.Salamoğlu və digər bu kimi mütəxəssislərin realizmlə bağlı mülahizələrini öyrənmiş, realizmə xas olan estetik keyfiyyətlərin Azərbaycan ədəbiyyatşünaslığında bir sıra

məsələlərinin çözülməsinə çalışmışıq.

Üçüncü fəslin “**Sosialist realizmi metodu Azərbaycan ədəbiyyatşünaslığında**” adlanan ikinci paraqrafında adını çəkdiyimiz bu ədəbi-estetik cərəyanın bədii təfəkkürümüzə və ədəbiyyatşünaslığımıza rus sovet ədəbiyyatı və ədəbiyyatşünaslığından məcburən pərçim edildiyini, sosialist realizmi metodunun Sov. İKP MK-nın tapşırığı ilə ölkənin partiya funksionerləri tərəfindən sifariş şəklində gətirildiyinin əsaslarını araşdırmağa səy göstərmişik. XX əsrin 1920-1930-cu illərindən bu cərəyan və metodun inkişaf etdirilməsi siyasi-ideoloji magistral olaraq təşəkkül tapıb irəliləməsi, 1940-1950-ci illərdə bədii düşüncənin sosialist realizmi çərçivələrində ifrat dərəcədə formalaşdırılması meyilləri güclənsə də, 1960-1970-ci illərdə ona dəyişkən münasibətin daha çox ortaya çəkilib səsləndirilməsi, 1980-ci illərdə SSRİ-də gedən ictimai-siyasi, ideoloji-mədəni, ədəbi və yenidənqurma prosesləri, bu proseslərin strategiyası, cəmiyyətimizdəki aşkarlıq, demokratiya və plüralizm kimi fikir müxtəliflikləri sosialist realizmi ilə bağlı bir metod kimi təsəvvürləri kardinal şəkildə dəyişirdi. 1990-cı illərdən sosialist realizminə qarşı başlayan xüsusi ikrahdolu neqativ münasibət Azərbaycan tənqidçilərinin dissertasiya işlərində, tədqiqat və araşdırmalarında daha çox ön plana gətirilirdi. T.Salamoğlu, T.Əlişanoğlu, Elçin, A.Bayramoğlu, və digərləri sosialist realizmi metoduna münasibət sərgiləyərkən kifayət qədər əsaslı sübutlar gətirməyə müvəffəq olurdular. İctimai-mədəni həyatımızın bütün sferalarına sosialist realizmi metodunu elə şəkildə yerləşdirmişdilər ki, yazıçının fərdi təxəyyül imkanları məhdudaşdırılmış, hətta boğdurulmuşdu. Sov.İKP MK-nın ideoloji konsepsiyasındakı ədəbiyyatla bağlı direktivlər onun bütün imkanlarını buxovlayırdı. Bütün bu qeyri-adekvatlığa baxmayaraq, Kommunist partiyası ideoloqları sosialist realizminin məhvinin, iflasının qarşısının alınması ilə bağlı Moskvadakı “Raduqa” nəşriyyatında 1985-ci ildə “Sosialist realizmi xaricdə. Nəzəriyyə və praktika problemlərinin işlənməsi” adlı bir kitab da araya gətirdilər ki, guya latın Amerikası, Asiya, Afrika, Hindistan, Pakistan, Əfqanıstan, Monqolustan, Türkiyə və digər ölkələrdə yaşayan xalqlar sosialist realizmi metodunu bəyənir və məhz bu metodla öz əsərlərini yazmağa çalışırdılar. Lakin vəziyyət elə çevik bir sürətlə dəyişirdi ki, bu kitabın nəşri də sosialist realizmi metodunu xilas edə bilmədi. Eyni zamanda tədqiqat işində bu da qeyd olunur ki, 70 illik bir zaman

kəsiyində rus ədəbiyyatından gələn sosialist realizmi metodu milli ədəbiyyatşünaslığımızın, o cümlədən bədii-estetik fikrimizin durğunluq dövrünü yaşamasına səbəb oldu. Beləliklə, 1990-cı illərdən ortaya çıxmış yanaşmalarda sosialist realizminin əksər hallarda Azərbaycan cəmiyyətinin həyatına nüfuz etmədiyi, insanları mənəvi baxımdan zənginləşdirmədiyi və s. kimi məsələlərə Azərbaycan ədəbi tənqidində yaradılmış əsərlərin təhlili və ədəbiyyatşünaslığımızın, estetik problemlərinin işlənilməsinə onun kömək edə bilmədiyi vurğulanmışdır.

Üçüncü fəslin **"Avropa və rus poeziyasından gələn lirik janrlar və Azərbaycan ədəbiyyatşünaslığı"** adlanan üçüncü paraqrafında Avropa və Rusiyadan ədəbi-poetik düşüncəmizə daxil olan himn, marş, epitafiya, elegiya, terset, oda, epiqram, madriqal və s. kimi janrlar nəzərdən keçirilmiş, onların əksəriyyətinin tərifi verilmişdir. Yarımfəsildə romans və sonet janrları üzərində daha ətraflı dayanılmış, romansın romandilli ölkələrdə, İspaniya və İtaliyada yarandıqdan sonra rus xalq mədəniyyətinin təsiri altında formalaşdığına, bizim ədəbiyyatımızda və müsiqimizdə yayılmasına, onların spesifik tərəflərinə və keyfiyyətlərinə diqqət çəkməyi məqsədə uyğun hesab etmişik. Romans və sonet lirik janrları əvvəl Avropa (ispan, fransız, alman, ingilis), bundan sonra rus poeziyasında inkişaf etdirilmiş, məhz daha sonra Azərbaycan poeziyasına adlamışdır. Romans janrında Ə.Xaqaninin, B.Vahabzadənin, S.Rüstəmin, İ.Səfərlinin, M.Müşfiqin, Z.Cabbarzadənin və başqalarının yaratdığı nümunələrin daha diqqətçəkən olduğunu və bu nümunələrə Azərbaycan bəstəkarlarının musiqilər bəstələdiklərindən müfəssəl bəhs edilmişdir.

Sonet janrı da romans kimi nəğməyə, improvizasiyaya daha yatımlı olmaqla italyancadan "sonetto", provansaldan "sonet" nəğmə və yenə də italyancadan "sonare" səslənmə kimi nəzərdən keçirilib, poeziyada əsasən ciddi şeir forması olub, xüsusi sıralanma qaydasına malikdir. Sonetin klassik forması italyan soneti olub, özünəməxsus qafiyələnmə ilə seçilir. Fransız sonetinin formasına italyan soneti təsir göstərməklə terset daim cüt qafiyədən başlayır. Belə formaya Ronsar və Bellenin sonetləri aid edilir. Sonetin üçüncü geniş yayılmış forması ingilis sonetidir. Bu formada Q.Hovard və V.Şekspir sonetləri yetərincə populyar olmuşdur. Alman soneti əsasən İ.V.Hötenin poetik dahiliyi nəticəsində daha çox yayılmışdır. Rus poeziyasında V.İvanov, V.Bryusov, İ.Selvinski, M.Voloşin; ukraynalı M.Smotritski; polyak A.Mitskekviç və b.

yaradıcılığında sonet janrına daha böyük önəm verilmişdir. Sonet yetərincə qeyri-adi şeir forması olduğundan onu Sent Bev "büllur göz yaşı", İ.Bexer "poetik formalar şahmatı", M.Baxtin "iri mökəm daş", S.Gerasimov "çərçivədəki naxışlı kətan üzərindəki yağlı boyalarla çəkilmiş şəkil", R.Zlobinskaya "zaman forması", O.Fedotov "komponentlərin ciddi sturkturlaşdırılmış almaz kristalları", İ.Koçurovski "kral-sonet" kimi dəyərlərdirmişlər. Sonet janrı Avropa və rus poeziyasından XX əsrin əvvəllərindən ədəbiyyatımıza daxil olsa da, keçmiş bu bir əsr ərzində kifayət qədər dəyərli nümunələr Ə.Səbur, M.Müşfiq, Ə.Kürçaylı T.Əyyubov, A.Babayev, A.Abdulla, M.Talışlı, S.Rüstəmxanlı, S.Mustafa, B.Sadiq, E.Səfərli, Ə.Nasir və digərləri tərəfindən uğurla yaradılmışdır. Tədqiqat işinin bu paraqrafında sonetin Avropa və rus poeziyasından ədəbiyyatımıza gəldiyini əsaslandırdıqdan sonra həm də onun nəzəri problemlərinin milli ədəbiyyatşünaslığımızda işlənməsini təhlil etmək məqsədini güddüyümüzdən bu janrın nəzəri xüsusiyyətlərinin S.Əsədullayev, T.Mütəllimov, Ə.Xəlilov, Ş.Mirzəyeva, H.Həşimli, Ş.Xəlilli, T.Məmmədova, A.Bağırova, E.Səfərli və digərləri tərəfindən əsaslı araşdırıldığını izləmişik. Bununla belə, bu istiqamətdə ardıcıl və konseptual monoqrafik araşdırmalar aparmış S.Əsədullayev, H.Həşimli, E.Səfərli və A.Bağırovanın axtarışları və sonetin bir janr kimi özünəməxsus Avropa və rus poeziyasından gələn spesifik tərəflərinin incələnməsi məhz adlarını çəkdiyimiz bu alimlərin səyi nəticəsində baş vermişdir. Bu da Qərbi Avropa və rus ədəbiyyatının nəzəri problemlərinin Azərbaycan ədəbiyyatşünaslığında daha dərinləşdirilmiş istiqamətdə öyrənilməsi üçün önəmli baza yaratmışdır. Çağdaş dövrümüzdə dünya poeziyasından gələn sonet janrının populyar olması, ədəbiyyatımızda mənimsənilməsinin və ədəbiyyatşünaslığımızda işlənilməsinin bu gün uğurla davam etdirilməsini onların əsərlərindən gələn müddəalarla sübut etməyə və əsaslandırmağa çalışmışıq.

Tədqiqatın üçüncü fəsli ilə bağlı qənaətlərimizi aşağıdakı məqalə və materiallarda araşdırıb ortaya qoymuşuq[28].

---

[28] İbrahimova, N. Qərbi Avropa ədəbiyyatının nəzəri problemlərinin Azərbaycan ədəbiyyatşünaslığının mənimsəməsində Mirzə Fətəli Axundzadənin rolu // – Bakı: Bakı Slavyan Universiteti, Elmi əsərlər, Dil və ədəbiyyat seriyası.–2020. № 1, – s. 156-164; Проблемы изучения жанра сонет в азербайджанском литературоведении // Сборник материалов VI Всероссийской научно-практической конференции. – Уфа: – с. 160-167; Дисскусия о методе

Problem müvafiq fəsillər üzrə işlənildikdən sonra tədqiqatın sonunda əsaslı qənaətlərə gəlinmiş və əsərin "**Nəticə**" hissəsində ümumiləşdirmələr ortaya qoyulmuşdur:

1. Ədəbiyyatşünaslığımızın çeşidli problemlərinin daha praqmatik kontekstdə öyrənilməsini nəinki milli örnəklər əsasında, həm də dünya, Şərq, Qərbi Avropa, rus ədəbi-nəzəri problemlərini daha geniş müstəvidə öyrənmədən milli nəzəri fikrin inkişaf mexanizmini, onun hərəkət vektorlarını ortaya qoymaq, ümummetodoloji koordinatlarını, bu koordinatların inkişaf xətlərini doğru rakursdan aydınlaşdırmaq zəruridir.

2. Azərbaycan ədəbiyyatı uzun əsrlər boyunca islam mədəniyyəti və ədəbiyyatı kontekstində inkişaf etdiyindən onun gedişinə ilk növbədə pozitiv təsir göstərən Şərq nəzəri fikri, Şərq fəlsəfi düşüncəsi və Şərq poetikasının geniş yayılmış elementləri olmuşdur. Ədəbiyyatşünaslıq elmimizi yaradanlar (Q.Təbrizi, X.Təbrizi, N.Gəncəvi, N.Tusi, Ə.Təbrizi, R.Təbrizi, M.Füzuli) orta əsrlərdən başlayaraq Şərq ədəbiyyatının nəzəri problemlərini mənimsəyib, nəzəriyyəmizdə tətbiq etməyə çalışsalar da, XIX əsrə qədər Şərq bədii-poetik sisteminin müxtəlif tərəflərini, Quran bəlağəti, Quranın mövzu və məzmun gözəlliyi, bədii söz sənətində təsvir və bəlağət, bədiyyatın üslubi qurum kimi kateqoriyalarının bədii-estetik özəllikləri, rəmz və işarələr və s. sistemli və ardıcıl öyrənmişlər. Sufi simvolikası, obrazlı-mistik ifadələrin ikiplanlığı, ərəb-müsəlman mədəniyyəti və farsdilli poeziyanın sinkretikliyi, onların Azərbaycan bədii-fəlsəfi düşüncəsinə və ədəbiyyatşünaslığa təsirini incələməyə səy göstərmişlər.

3. V.Vankenroder, L.Tik, Şlegel qardaşlarının köməyi ilə təşəlkül tapan fəlsəfi yanaşmalar F.Şlegel və F.Şellinqin, daha sonra Vilhelm və Yakob Qrimm qardaşları, İ.Hofman, H.Heyne və başqalarının yaradıcılığında xüsusilə intişar tapmış dünya ədəbiyyatının nəzəri problemləri rus ədəbiyyatında romantizm cərəyanı V.Jukovski, A.Puşkin, N.Qoqol, M.Lermontov və başqalarının yaradıcılığında daha böyük vüsətlə inkişaf etdirilməsinə XIX əsrdə Fransa, İngiltərə, Almaniya,

---

социалистичкского реализма в советской и Азербайджанской литературе// VIII International Scientific Conference Development of Georgian-Ossetian Relationship. – Tbilisi: – 2023. – s. 180-188; İbrahimova N. Avropa və rus tənqidi-estetik fikrinin xüsusiyyətlərinin M.F.Axundzadə tərəfindən qavrayışı // – Gəncə: Elmi xəbərlər, – 2023. № 1. – s. 325-328 və s.

İtaliya, Rusiya və digər ölkələrdə yayıldıqdan sonra Azərbaycanda XX əsrin əvvəllərindən A.Şaiq, Ə.Hüseynzadə, Ə.Cavid, A.Səhhət, M.Hadi, H.Cavid və başqalarının yaradıcılığında inkişaf tapdığını müəyyənləşdirdik. Romantizm cərəyanın xeyli problemlərinə M.Cəlal, H.Araslı, C.Cəfərov, B.Nəbiyev, Y.Qarayev, Ə.Mirəhmədov, M.Əlioğlu, Ə.İbadoğlu, O.Bayramova, K.Əliyev, V.Osmanlı, T.Əfəndiyev, İ.Vahabzadə, İ.Həbibbəyli və başqaları nəzər salmaqla Qərb və rus romantizm ənənələrini milli mühitdə öyrənib, Azərbaycan romantizmi ilə tipoloji xüsusiyyətlərinin formalaşması və bu kontekstdə romantizmlə bağlı alimlərin mülahizələri, onların problemə həsr olunmuş monoqrafik tədqiqatlarında ortaya qoyulmuşdur. Müəyyən olundu ki, dünya romantizminin nəzəri problemlərini XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatşünaslığında daha əsaslı formalaşdıran Ə.Hüseynzadə və digərlərinin baxışları yetərincə nəzərə çarpan olmuşdur.

4. Araşdırma nəticəsində müəyyənləşdirdik ki, Qərbi Avropa və rus ədəbi-nəzəri fikrində intişar tapmış realizm XVIII əsrin sonları – XIX əsrin əvvəllərindən Avropa və rus ədəbiyyatları nümayəndələrinin əsərlərində özünə yer aldıqdan sonra onun nəzəri aspektləri dünya ədəbiyyatşünaslığının daim diqqət mərkəzində olmuşdur. Azərbaycan ədəbiyyatına və ədəbiyyatşünaslığına isə onun ədəbi-nəzəri və fəlsəfi-estetik hadisə kimi gəlişi və bədii fikrimizdə təşəkkülü M.F.Axunzadənin adı ilə bağlı olmuşdur.

5. Tədqiqat işində realizmin bir cərəyan və metod kimi xüsusiyyətlərini nəzərdən keçirdikdə biz sosialist realizmi metodunun da ədəbiyyatşünaslığımızda müxtəlif tərəflərini araşdırmağa, sovet dönəmində ədəbiyyatımıza və ədəbiyyatşünaslığımıza bu metodun məcburən pərçim edildiyini müəyyənləşdirdik.

SSRİ sosialist dövlət düşərgəsi kimi aradan çıxdıqdan sonra isə Azərbaycan ədəbiyyatşünaslığında bir sıra nəzəri-tənqidi arasdırmalarda sosialist realizmi metodunun xarakterik xüsusiyyətləri H.Qasımovun, T.Salamoğlunun, T.Əlişanoğlunun, Elçinin və başqalarının nəzəri məsələləri çevrələyən əsərləri tədqiqata cəlb edilmiş, onların gərəkli tərəfləri əsaslı şəkildə təhlil olunmuşdur.

6 Araşdırmalar aparαrkən onu da müəyyənləşdirdik ki, problemə tarixilik prinsipindən yanaşılmalı, daha zəruri və mühüm mərhələlər – qədim dövr, orta əsrlər, yeni dövr, XIX əsr, XX əsrin əvvəlləri, XX əsrin

ortalarına qədər, 60–80-ci illər, 1990-2000-ci illər və müasir dövrdə dünya ədəbiyyatının nəzəri problemlərinin Azərbaycan ədəbiyyatşünaslığında özünü necə əks etdirdiyini diferensiasiya edilməsi ilə mümkün ola bilər.

7. Azərbaycan ədəbiyyatşünaslığının bəzi məsələlərini dünya ədəbiyyatının nəzəri problemləri kontekstində öyrəndikdə bu ədəbiyyatların bir-birindən yararlanmasının təsir mexanizmlərini dərindən araşdırmaqla daha əsaslı şəkildə ortaya qoymaq mümkündür.

**Dissertasiya mövzusu ilə bağlı aşağıdakı elmi əsərlər dərc olunmuşdur:**


1. Şərq ədəbi-nəzəri fikri və Azərbaycan ədəbiyyatşünaslığının inkişafı. // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Filologiya məsələləri – 2020. № 6, – s. 257-268.
2. Qərbi Avropa ədəbiyyatının nəzəri problemlərinin Azərbaycan ədəbiyyatşünaslığının mənimsəməsində Mirzə Fətəli Axundzadənin rolu // – Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi. Bakı Slavyan Universiteti, Elmi əsərlər, Dil və ədəbiyyat seriyası. – 2020. № 1, – s. 156-164.
3. Dünya ədəbi-nəzəri fikri və Azərbaycan ədəbiyyatşünaslığı // – Sumqayıt: Sumqayıt Dövlət Unuversiteti. "Elmi xəbərlər" Sosial və humanitar elmlər bölməsi. – 2020. cild 16 № 4, – s. 50-54.
4. Avropa və Rus romantizminin Azərbaycan romantizminin inkişafına təsiri // "Filoloji elmlər innovativ tədqiqatlar kontekstində" adlı Beynəlxalq elmi-praktik onlayn konfrans materialları. – Bakı: – 24 dekabr, – 2020. – s. 237-240.
5. Проблемы изучения жанра сонет в азербайджанском литературоведении // Башкирский язык в образовательном пространстве Республики Башкортостан и субъектов Российской Федерации: Сборник материалов VI Всероссийской научно-практической конференции, посвященной 80-летию со дня рождения ученого-методиста Р.Г.Азнагулова. – Уфа: –12 февраля, – 2021. – с. 160-167.
6. Усвоение Русского и Западноевропейского Реализма в Азербайджанском литературоведении и литературе //

«Культурное наследие Каракалпакстана». Материалы международной научно-практической конференции, посвященной 106 – летию Народного поэта Узбекистана и Каракалпакстана Тилеубергена Купбатулла Улы Жумамуратова. – Нукус: – 2021. – с. 351-357.

7. Дискуссия о методе социалистического реализма в советской и азербайджанской литературе // Ivane Javakhishvili Tbilisi State University Research Center for Georgian-Ossetian Relationship Ministry of Education and Science Shota Rustaveli National Foundation of Georgia, VIII International Scientific Conference Development of Georgian-Ossetian Relationship. – Georgia: – 3-14 October, – 2022. – c. 59-60
8. Дисскусия о методе социалистичкского реализма в советской и Азербайджанской литературе // VIII International Scientific Conference Development of Georgian-Ossetian Relationship. The Conference is Dedicated to Temirbolat Mamsurov Ossetian Poet Mukhajir. – Tbilisi: – 13-15 October, – 2022, – s. 180-188.
9. Avropa və rus tənqidi-estetik fikrinin xüsusiyyətlərinin M.F.Axundzadə tərəfindən qavrayışı // – Gəncə: Elmi xəbərlər,– 2023. № 1, –s. 325-328
10. From western European and Russian romanticism and realism transition to Azerbaijani realism // – Philadelphia: Theoretical & Applied Science. – 2023. 124(08), – s. 276-279.
11. Klassizm ədəbi-mədəni cərəyanı və Azərbaycan ədəbiyyatı // – Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Elmi məqalələr məcmuəsi. – 2023. № 4, –s. 151-154
12. The Emergence of World Romanticism into Azerbaijani Literaturefrom the XIX th Century Tuijin Jishu / – Journal of Propulsion Technology. – 2024. Vol. 45 No.1, – s. 4483-4486
13. Aesthetic principles of european and russian romanticism, Azerbaijani romanticism // – Нижневартовск: Бюллетень науки и практики. – 2024. T. 10. No 6, – s. 9-13
14. World postmodernism and the uniqueness of Azerbaijani postmodernism // – Ученые записки. Университету имени В.И.Вернадського. –2024. Том 35 (74). № 3, – c. 9-13



26

Dissertasiyanın müdafiəsi 30 iyun 2026-cı il tarixində saat $14^{00}$-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən FD 1.31 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1001, Bakı şəhəri. İstiqlaliyyət küçəsi, 53.

Dissertasiya ilə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 26 may 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 20.05.2026

Kağızın formatı: A5

Həcm: 42928

Tiraj: 100